**UOT 738.**

**Şəbnəm Maqsudova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**E-mail: maqsudova97@list.ru**

# XIX ƏSR QARABAĞ ZƏRGƏRLİK MƏKTƏBİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**: XIX əsrdə Rusiyanın Şimali Azərbaycan üzərində ağalığı bütün sahələrə olduğu kimi zərgərliyə də təsirsiz ötüşmürdü. Artıq Azərbaycan zərgərliyi özünə Qafqazda layiqli yer tutmuşdu. Bu zərgərlik məktəbləri içərisində "Qarabağ" (Şuşa) xüsusilə qeyd edilməlidir.

Geyimin əsas tərkib hissəsinə çevrilən bəzəklər qadınlar üçün daha şık işlənirdi. Kişi bəzəkləri əsasən kəmər və xəncər ilə kifayətlənirdi. Bu sənət şəhər həyatı ilə bağlı olduğundan kübar əhalinin tələbatını ödəyirdi.

Dövrün bəzəklərinə minimalizm anlayışı uzaqdır. Dekorlarda əsasən nəbati motivlər ön plana çəkilir, səth incə bəzənir, daş-qaşlar əsas dəbli elementə çevrilirdi. Məktəbin sevimli texnikası "şəbəkə" idi. Əsas material olan qızılı gümüşdə əvəzləyir, keyfiyyətsiz materiala rast gəlinmirdi. Silahlar sanki zərgərlik əşyası kimi süslənir, zərgər ustalar silah üzərində qızıl və gümüş material ilə naxış və yazılar həkk edir, daş-qaşla bəzəyirdilər.

**Açar sözlər:** Qarabağ, Şuşa, zərgərlik, motiv, şəbəkə

Azərbaycanın zərgərlik sənətinin tarixini araşdırarkən qədim ustaların bacarığına, dünyagörüşünə heyran qalmamaq mümkün deyil.

Zərgərlər dekorativ-tətbiqi sənətin digər ustaları kimi daim təbiətdən ilhamlanmış, gördüklərinə özlərinə məxsus şəkildə yanaşmış, canlandırmışlar. XIX əsrdə zərgərliyin əsas mərkəzləri Bakı, Gəncə, Şuşa, Şəki, Şamaxı və Naxçıvan şəhərləri idi. Haqqında bəhs edilən mərhələni, xüsusilə də, Qarabağ zərgərlik məktəbini bu sənətin intibah mərhələsi adlandıra bilərik. Qarabağ zonası zəngin təbii sərvətləri, ecazkar təbiəti ilə vətənin digər bölgələrindən fərqlənir. Bu zənginlik bir çox sənət növlərinin, o cümlədən, zərgərliyin qədim zamanlardan formalaşması, uzun bir inkişaf yolu keçməsinə səbəb olmuşdur. Bu məkanda zərgərlik sənətinin əsas mərkəzi Şuşa şəhəri idi. Məlumdur ki, şəhərlər sənətkarlığın inkişafında mühüm rol oynamışdır. Bir sıra sənətkarlıq sahələrindən fərqli olaraq zərgərlik sənəti, şəhər sənətkarlığı sahəsinə aid edilir. "Bu səbəbdən Qarabağ zərgərlik sənəti məhz Şuşanın şəhər kimi formalaşmasından sonra yüksək inkişaf səviyyəsinə çatmışdır". (3, səh.81)

Bu səbəbdən də əsas istehlakçı kütləsi kübar əhali idi. Əsas xammal hesab olunan qızılla yanaşı gümüş və qiymətli daşlardan da kifayət qədər istifadə olunur, bu da müstəqil bir sənayenin inkişafına gətirib çıxarırdı. Burada ucuz gümüş məmulatları azlıq təşkil edir, bəzək əşyaları nəfis cilalanırdı.

Zərgərlik əşyalarının istifadəsi müasir dövrdə olduğu kimi yalnız estetik mahiyyət daşımır, həm qoruyucu, mühafizəedici rolu oynayır, həm də sevinc, zəfər rəmzi kimi çıxış edirdi.

Yenicə ana olmuş qadınların qırx gün müddətində zərgərlik əşyasından istifadəsi düzgün hesab edilmirdi. Məhərrəmlik ayı, dini mərasimlərin icrası zamanı belə əşyalardan istifadə qınanılırdı. Yaşlı qadınlar yalnız üzük və sırğalardan istifadə edər, baş və sinə bəzəklərindən imtina edərdilər. Qızlar zərgərlik əşyası olmadan bəyin evinə gəlin aparıla bilməzdi. Kəmərlər gəlin cehizinin əsas elementi olardı. Qızlar kəmər geyinməz, yalnız gəlin köçəndən sonra istifadə edərdilər. Kəmərlər üçün əsas xammal gümüş hesab olunurdu.

Azərbaycan xalqının tarixən qanına hopmuş etik normalardan, ənənələrindən irəli gələrək Azərbaycan kişisi kəmər və xəncər istisna olmaqla, bəzək əşyalarından uzaq qaçmışdır.

Kişi geyimlərindən fərqli olaraq xanımların geyimlərini qızıl və gümüşdən hazırlanan bəzəklər tamamlayırdı. Belə bəzəklər sırasında sancaqlar, düymələr, yaxalıqlar, çarpazlar, qarmaqlar, kəmərlər, üst köynəyin qollarını, ətəkləri tamamlayan qızıl və gümüş naxışlar və baş bəzəkləri əhəmiyyətli rola malikdir. Baş bəzəkləri arasında Azərbaycanın qərb bölgələrində “dingəqabağı” və ya “cıqqa” adlanan tac (diadema) daha cəlbedicidir.

XIX əsrin əvvəllərində motivlərdə bir qədər fərqli nəfəsə rast gəlirik. Həndəsi, zoomorfik naxışlarla əhatələnmiş “çiçək” detalları daha çox ön plana keçir. Dövrün zərgərlik əşyaları daha zərif, mürəkkəb, daha ornamental xüsusiyyətlər əldə edir, zümrüd, yaqut, firuzə, aydaşı kimi daşlarla bəzənir, bu daşlar əşyanı göy qurşağı kimi al-əlvan edirdi.

Geyim bəzəkləri sırasında əlcəklər xüsusi gözəlliyə malikdir. İncə və nəfis şəkildə bəzədilmiş belə nümunələrdən Kəlbəcər ustasının bacarığından xəbər verən çaxmaqəlib və doldurma texnikaları ilə bəzənmiş nümunə diqqətəlayiqdir.

Bu qrupa daxil olan bəzəklər sırasında XIX əsrdən əsasən bəzək funksiyası daşıyan sancaqlardır. Sancaqlar əvvəlki mərhələlərdə daha çox əməli xarakter daşıyırdısa, XIX əsrdən mürəkkəbləşir, daş-qaşlarla zəngin şəkildə bəzədilirdi.

Xanımlar sehrli məna yüklənmiş, “qoruyucu” olduğuna inanılan əşyaları istifadə etməyi çox sevirdilər. Azərbaycanın müxtəlif zonalarından aşkarlanmış, demək olar ki, forma baxımından bir-biri ilə yaxınlıq təşkil edən Quran qabılı boyunbağılardan bəhs edə bilərik. Qarabağ ustalarının əməyinin məhsulu olan belə bir bəzək qızıldan şəbəkə texnikasında ərsəyə gətirilmiş, rəngli şüşə və mirvari ilə bəzənmişdir. Belə qiymətli əşya zərgərliyin Qarabağda inkişaf

səviyyəsinin sübutudur.

Həmçinin, Azərbaycanda o dövr etnoqrafiyanın tədqiqində qiymətli dəlildir. Qarmaqcıqlar vasitəsi ilə aşağı hissəsinə ulduz və aypara hissəciklər bərkidilmiş, öz növbəsində mirvari ilə bəzədilmiş on beş damlaşəkilli hissəcik birləşdirilmişdir. Qabın üst hissəsində də həcmcə bir qədər böyük aypara ulduz, üzərində isə dövr üçün xarakterik olan qıvrımşəkilli nəbati naxışlarla bəzənmişdir.

"Şuşa şəhərində zərgərlik sənəti XIX əsrin ikinci yarısında yüksək inkişaf mərhələsinə çatmışdır. Akademik Ə.S.Sumbatzadənin tərtib etdiyi cədvəldən aydın görünür ki, 1848-ci ildə Şuşa şəhərində 3, 1849-cu ildə 32, 1860-cı ildə 81, 1879-cu ildə 31 gümüşbənd ustası fəaliyyət göstərmişdir. 1900-cü ildə onların sayı 13-ə ensə də, artıq 1902-ci ildə Şuşada zərgər dükanlarının sayı 20-yə çatmış və orada 56 nəfər sənətkar işləmişdir" [4, səh. 171-172].

Qarabağ zərgərlik məktəbini araşdırarkən hal-hazırda Azərbaycan Milli Xalça Muzeyində mühafizə olunan 2019-cu ildə Sotheby hərrac evindən satın alınmış qiymətli asmalardan da xüsusilə bəhs olunmalıdır. Məlumdur ki, bu mərhələ qüdrətli Qacar sülaləsinin hökmranlığı dövrüdür. Bu güc-qüdrət özünü dekorativ-tətbiqi sənətin növ və janrlarında göstərir, haqqında bəhs olunan asmalar da məhz Qacar üslubludur. Üslubun əsas xarakterik xüsusiyyətlərindən əsasən, mina texnikasına müraciət edilməsidir. Təsadüfi deyil ki, bu texnikanın əsas inkişaf mərhələsi XIX əsrə təsadüf edir. Qızıl materialı minanı daha gözoxşayan etdiyindən əsas xammal qızıl olmuşdur. Polixrom minasazlıq "gül-bülbül" süjetlərinin işlənməsində əvəzsiz texnikadır. Asma haqqında ilk bəhs edəcəyimiz ikiüzlüdür, hər iki üzündə bu süjeti izlənilir. Asmanın yuxarı hissəsində həyat ağacı rolunda lotos gülü təsvir olunmuş, onu hər iki tərəfində tovuz quşları mühafizə edir. Mərkəzdə günəşi simvolizə edən yaqut qaş kənarlarda isə şüa rolu oynayan səkkiz xrisolit daşı göz oxşayır. Kompozisiyanın əsası simvolik kübar Şərq xanımıdır.

Digər asmada gül-bülbül süjeti işlənmiş, medalyonun əsas bəzək ünsürü zümrüd, kənarları yaqut qaşla bəzədilmişdir. Aşağı hissəsində qarmaqcıqlarla mirvarilər bərkidilmiş, bu da medalyonu daha baxımlı edir.

Əsrin ortalarında zərgərlik yeni bir mərhələyə qədəm qoyur, yeni imkanlar əldə edirdi. Silah istehsalı sahəsindəki durğunluq dirçəliş mərhələsi ilə əvəzlənir, zəngin naxışları baxımından zərgərlik əşyasından heç də geri qalmırdı. Silah bütün Qafqaz əhalisi üçün şərəf, namus, kimliyin rəmzi idi. Ailədə oğlan övladı dünyaya gəldiyi zaman ona elə kiçik yaşlarından "döyüşçü" ruhu aşılanar, xəncər hədiyyə edilərdi. Bu cəsur döyüşçülər yeniyetməlik çağına gəldikdə daha böyük silahlarla silahlanardılar.

Azərbaycanlı ustalar xəncər, qılınc, tapança, tüfəng kimi silahları bəzəmək üçün qızıl və gümüşdən istifadə edir, bu bəzəklər soyuq silahların gövdəsi, tutacaqları boyu, odlu silahların üzük, lüləni gövdəyə bağlayan kilid, açar və

tətik ətrafı, sap və sapın top hissəsini örtürdü. Gümüş detallar nieollo və oyma texnikasından istifadə etməklə nəbati və həndəsi naxışlarla bəzənir, bəzən belə naxışlı lövhə bütün səthi örtür, silah bir növ zərgərlik əşyasına çevrilirdi. Silahların üzərində çox zaman sahibinin adı, tarix, ustanın adının baş hərfi, müqəddəs kəlamlara rast gəlinir. Bizə XIX əsrin ortalarında Qarabağda silah bəzədilməsi sahəsində məşhurlaşmış bəzi zərgərlərin adları məlumdur: Əli oğlu Mustafa Hüseyn, Bağırov Mirzəcan, Bədəlov Musa, Əli Kərbəlayi oğlu, Paşa oğlu Abdullah, Paşa oğlu Zeynal Məmməd, Sultan oğlu Əbdürrəhman.

Milli Azərbaycan Tarixi Muzeyinə Qarabağ xanlarının nəslində Cavanşirov Hüseyn tərəfindən son Qarabağ xanlarının silahları hədiyyə edilmiş, bu nəfis silahlar arasında daş-qaşlı tapança xüsusilə qiymətlidir. Üzərindəki yazıdan "Əli Qulu Qarabağda işləyib" sözləri oxunur. Tapança zərif qızıl naxışlarla bəzənib, kübar xarici görünüşə malikdir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan arxeologiyası və etnoqrafiyası. Qarabağın zərgərlik sənəti. G.S.Axundova. 2006. №2. S.189-196.

2. Azərbaycan zərgərlik sənəti. S.Sadıxova //Mədəni-maarif. 2010. №1/2. S.66-70.

3.F.İ.Vəliyev, G.S.Abdulova. Qarabağ geyimləri. Kataloq. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2016. 352 səh.

4.Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку, Изд-во АН.Азерб.ССР., 1964

5.Головные украшения ювелирного фонда музея азербайджанского ковра Севиль Садыхова, доктор наук по искусствоведению, профессор Вышка. 2017. 14 апреля. С. 11.

6.Шуша – центр ювелирного искусства Азербайджана. Журнал «ИРС-НАСЛЕДИЕ», №2-3 (14-15), 2005, стр.24-26

7.https://www.ensiklopediya.az/ru/karabakhskie-mastera-oruzheyniki-v-istorii-azerbaydzhana

8.https://gulustan.info/2011/06/09/%D0%B8%D1%81%D1%82%D0%BE%D1%80%D0%B8%D1%8F-%D0%BA%D0%BB%D0%B8%D0%BD%D0%BA%D0%B0/

**Магсудова Шабнам**

**Художественные особенности Карабахской ювелирной школы XIX века**

**Резюме:** В XIX веке господство России над Северным Азербайджаном, было немаловажным во всех сферах, также и в ювелирном деле. Азербайджанские украшения уже заняли достойное место на Кавказе. Среди этих ювелирных школ следует особо отметить «Карабах» (Шуша).

Орнаменты, которые стали основной составляющей женской одежды, сделали более стильными. Мужские украшения в основном ограничивались поясами и кинжалами. Поскольку это искусство было связано с городской жизнью, оно отвечало потребностям аристократического населения.

Концепция минимализма далека от орнаментов того времени. В декоре преобладали цветочные мотивы, поверхность была изящно декорирована, а украшения стали главным модным элементом. Любимым приемом в школе была «нетворкинг». Он заменяет золото, которое является основным материалом, на серебро, и не было материала плохого качества. Оружие украшали как драгоценности, а ювелиры гравировали на оружии узоры и надписи из золота и серебра и украшали их камнями.

**Ключевые слова**: Шуша, украшения, пояс, кинжал

**Magsudova Shabnam**

## Artistic features of the Karabakh jewelry school of the xix century

**Summary:** In the 19th century, Russia's dominance over Northern Azerbaijan, as in all spheres, was not insignificant in jewelry. Azerbaijani jewelry has already taken its rightful place in the Caucasus. Among these jewelry schools, "Karabakh" (Shusha) should be especially noted.

The ornaments, which became the main component of the dress, were made more stylish for women. Men's ornaments were mainly limited to belts and daggers. Since this art was connected with city life, it met the needs of the aristocratic population.

The concept of minimalism is far from the ornaments of the time. In the decors, mainly floral motifs came to the fore, the surface was delicately decorated, and jewels became the main fashionable element. The school's favorite technique was "networking." It replaces gold, which is the main material, with silver, and there was no poor quality material. The weapons were decorated as if they were jewelry, and the jewelers engraved patterns and inscriptions on the weapons with gold and silver material, and decorated them with stones.

**Key words** : Shusha, jewelry, belt, dagger

**Məqalənin redaksiyaya daxil olma tarixi: 23. 10. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**